Nəzərə alın ki...

Eyni şəxs vergi orqanları tərəfindən eyni vergi ödəyicisi üzrə vergi ili ərzində bir dəfədən artıq müşahidəçi kimi dəvət oluna bilməz.

Qanunvericiliyin tələblərinə əməl etməyəcəyiniz halda baş verə biləcək maliyyə itkiləriniz, vergi və sığorta məbləğlərinin hesablanıb ödənilməsi ilə bağlı məlumatı www.taxes.gov.az internet saytından və müvafiq bukletlərdən əldə edə bilərsiniz

BAKI — 2022

DÖVLƏT VERGİ XİDMƏTİ

Səyyar vergi yoxlamaları üzrə edilmiş dəyişikliklər

Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən 01.01.2022-ci il tarixdən etibarən

Səyyar vergi yoxlaması mənfəət, gəlir, əmlak və torpaq vergiləri üzrə vergi ödəyicisinin son **3 təqvim ilindən** çox olmayan fəaliyyətini, digər vergilər üzrə həmin yoxlamanın keçirildiyi il də daxil olmaqla vergi ödəyicisinin son **3 ildən** çox olmayan fəaliyyətini əhatə edə bilər.

Vergi ödəyicisində keçirilən səyyar vergi yoxlaması zamanı qeyd olunmuş müddətlər nəzərə alınmaqla yoxlamanın əhatə etdiyi dövr və (və ya) vergi növləri aşağıdakı hallarda artırıla bilər:

- vergi ödəyicisinin müraciəti əsasında;
- keçirilən səyyar vergi yoxlamasının əhatə etdiyi dövrdən sonrakı dövrdə vergidən yayınma hallarının olması barədə vergi orqanında mənbəyi bəlli məlumatlar olduqda;
- cinayət prosesual qanunvericiliyinə uyğun olaraq məhkəmənin və ya hüquq mühafizə orqanlarının vergi yoxlamalarının keçirilməsi barədə müvafiq qərarı olduqda.

1195

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

Növbədənkənar vergi yoxlamasının keçirilməsi halları

Aşağıdakı hallarda Vergi Məcəlləsinin 85-ci maddəsində göstərilən müddətlərdən asılı olmayaraq, əvvəlki səyyar vergi yoxlaması ilə yoxlanılan dövr əhatə edilməklə yuxarı vergi orqanının qərarı əsasında növbədənkənar vergi yoxlaması keçirilə bilər:

- vergi yoxlamasının nəticələri ilə razılaşmayan vergi ödəyiciləri növbədənkənar səyyar vergi yoxlamasının keçirilməsini yazılı şəkildə tələb etdikdə;
  - Qeyd: Bu halda vergi yoxlaması vergi orqanlarının əvvəlki yoxlamanı keçirmiş vəzifəli şəxsləri tərəfindən keçirilə bilməz.
- vergi ödəyicisi tərəfindən səyyar vergi yoxlaması zamanı sənədlər təqdim edilmədikdə və vergi yoxlamasının nəticələrinə görə vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi haqqında vergi orqanının qərarından vergi ödəyicisi tərəfindən sənədlər təqdim edilməklə yuxarı vergi orqanına şikayət verildikdə;
- vergi yoxlamasının nəticələrinə görə vergi ödəyicisinin vergi qanunvericiliyinin pozulmasına görə məsuliyyətə cəlb edilməsi haqqında vergi orqanının qərarından vergi ödəyicisi tərəfindən səyyar vergi yoxlamasının keçirilməsi zamanı təqdim edilən sənədlərdən fərqli sənədlər təqdim edilməklə yuxarı vergi orqanına şikayət verildikdə.

Səyyar vergi yoxlamasının materiallarına baxılmanın nəticələri üzrə vergi orqanının rəhbəri (rəhbərin müavini) əlavə vergi yoxlaması tədbirlərinin keçirilməsi haqqında qərar çıxardığı halda təyin edilən yoxlama əvvəlki səyyar vergi yoxlamasının davamı hesab edilir və **yalnız 1 dəfə 60 iş günündən artıq olmamaqla** keçirilə bilər.

Əlavə vergi yoxlamasının keçirilməsinin nəticəsi üzrə yenidən əlavə vergi yoxlamasının keçirilməsi barədə qərar qəbul edilə bilməz.